**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**FƏLSƏFƏ VƏ HÜQUQ İNSTİTUTU**

---

*Əlyazması hüququnda*

**MÜRVƏT SIRACƏDDİN OĞLU BABAYEV**

# CİNAYƏT PROSESİNDƏ REABİLİTASİYA İNSTİTUTU

İxtisas: 5612.01 – Cinayət prosesi, kriminalistika və məhkəmə ekspertizası; əməliyyat-axtarış fəaliyyəti

**Hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**Bakı – 2016**

Dissertasiya işi Azərbaycan Universitetində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Cavanşir İslam oğlu Süleymanov**
hüquq elmləri doktoru, professor

**Rəsmi opponentlər:** **Midhəd Seyidəhməd oğlu Qəfərov**
hüquq üzrə elmlər doktoru, professor

**Hikmət Qismət oğlu Eyvazov**
hüquq üzrə fəlsəfə doktoru, dosent

**Aparıcı təşkilat:** Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyası

Hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın müdafiəsi 28 mart 2016-cı il tarixdə saat 11:00-da Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Hüquq İnstitutu nəzdindəki FD.01.103 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1143, Bakı şəhəri, H.Cavid prospekti 115, Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Hüquq İnstitutu, 9-cu mərtəbə, konfrans zalı.

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasında tanış olmaq olar.

Avtoreferat 26 fevral 2016-cı ildə göndərilmişdir.

**FD.01.103 Dissertasiya Şurasının**
**elmi katibi, h.ü.f.d., dosent** **X.Ə.Bayramzadə**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Tədqiqat mövzusunun aktuallığı.** Azərbaycan Respublikası Konstitusiyasının 12-ci maddəsi ilə insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi dövlətin ali məqsədi elan olunduğundan, hər bir dövlət fəaliyyəti, o cümlədən cinayət-prosessual fəaliyyət bu məqsədə xidmət etməlidir. Cinayət mühakimə icraatının bu məqsədinə törədilmiş hər bir cinayətin açılmasına yönəlmiş tədbirlər həyata keçirilərkən insan hüquq və azadlıqlarının qanunsuz məhdudlaşdırılması hallarına yol verilməməsi yolu ilə nail olmaq olar. Lakin təəssüflər olsun ki, bəzən cinayət mühakimə icraatının cinayət törətmiş şəxsləri ifşa və cinayət məsuliyyətinə cəlb etmək vəzifəsi ilə həqiqi və ya ehtimal edilən cinayət törətməsi ilə əlaqədar şəxsiyyəti vəzifə səlahiyyətlərindən sui-istifadə edilməsi hallarından qorumaq vəzifəsi uzlaşdırılmadığından qanunsuz olaraq cinayət məsuliyyətinə cəlb etmə və hətta məhkum etmə hallarına yol verilir. Bu hallar cinayət prosesini həyata keçirən şəxslərin yalnız vəzifə səlahiyyətlərindən sui-istifadəsi nəticəsində deyil, həm də onların səhvi nəticəsində baş verir. İstintaq və məhkəmə səhvlərinə yol verilməsi və qarşısının alınmasının qeyri-mümkünlüyü belə hallarda yaranmış vəziyyətin tənzimlənməsi üçün hüquqi bazanın mövcudluğunu tələb edir.

Təqsirsiz şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsi və ya məhkum edilməsi belə hallara yol verilməsi səbəbindən asılı olmayaraq, həmin şəxslərin hüquqlarının pozulmasına və onlara maddi, fiziki və mənəvi ziyan vurulmasına səbəb olur. Bu baxımdan cinayət prosesini həyata keçirən şəxslərin qarşısında duran əsas vəzifələrdən biri belə halların qarşısının alınması olsa da, digər vəzifəsi belə hallara yol verildiyi zaman baş vermiş ziyanlı nəticələrin aradan qaldırılması olmalıdır.

Cinayət prosesini həyata keçirən orqanın səhvi və ya sui-istifadəsi nəticəsində cinayət məsuliyyətinə cəlb edilmiş və ya məhkum edilmiş şəxslərin pozulmuş hüquqlarının bərpa edilməsi, vurulmuş ziyanın ödənilməsi üçün ilk növbədə cinayət prosesini həyata keçirən şəxslərin

səhvi və ya sui-istifadəsi faktı, o cümlədən belə faktlardan zərər çəkmiş şəxslərin reabilitasiya hüququ tanınmalıdır. Çünki istintaq və məhkəmə səhvlərinin, habelə cinayət prosesini həyata keçirən şəxslərin vəzifə səlahiyyətlərindən sui-istifadə etmə hallarının ziyanlı nəticələrinin aradan qaldırılması yalnız cinayət məsuliyyətinə qanunsuz cəlb edilmiş və ya məhkum edilmiş şəxslərin reabilitasiyası yolu ilə mümkündür.

İnsan hüquqları haqqında beynəlxalq sənədlərdə də cinayət prosesini həyata keçirən orqanın səhvi və ya sui-istifadəsi nəticəsində vurulmuş ziyanın ödənilməsi hüququ və bu hüququn həyata keçirilməsi üçün dövlətlərin öhdəliyi müəyyən olunur. Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən 29 noyabr 1985-ci ildə qəbul edilmiş "Cinayət və hakimiyyətdən sui-istifadə qurbanları üçün ədalət mühakiməsinin əsas prinsipləri haqqında" Bəyannaməyə əsasən zərər çəkmiş şəxslər çəkdiyi zərərə görə milli qanunvericilikdə nəzərdə tutulduğu qaydada məhkəməyə müraciət etmək və təxirəsalınmadan kompensasiya almaq hüququna malikdirlər və bunun təmin edilməsi üçün məhkəmə və inzibati mexanizmlər yaradılmalıdır.

Cinayət prosesini həyata keçirən orqanların səhvi və ya sui-istifadəsi nəticəsində vurulmuş ziyanın ödənilməsi hüququ 1950-ci il tarixli "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi" haqqında Konvensiyanın 5-ci maddəsinin 5-ci bəndində, 1966-cı il tarixli "Mülki və siyasi hüquqlar" haqqında Beynəlxalq paktın 9-cu maddəsinin 5-ci bəndində, 1984-cü il tarixli "İşgəncələr və digər qəddar və qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və cəzalar əleyhinə" Konvensiyanın 14-cü maddəsinin 1-ci bəndində və 1998-ci il tarixli "Beynəlxalq Cinayət Məhkəməsinin" Roma statutunun 85-ci maddəsində də təsbit olunmuşdur.

Milli qanunvericiliyin beynəlxalq sənədlərə uyğunlaşdırılması tələbi əsasında respublikamızda aparılan hüquqi islahatlar bu sahədən də yan ötməmişdir. Belə ki, Azərbaycan Respublikası Konstitusiyasının 68-ci maddəsi ilə dövlət, öz orqanlarının yaxud onların vəzifəli şəxslərinin qanunazidd hərəkətləri və ya hərəkətsizliyi nəticəsində vurulmuş zərərin

dövlət tərəfindən ödənilməsi hüququnu təsbit etməklə vətəndaşları qarşısında öhdəlik götürür.

Bu məsələlərin tənzimi üçün 1998-ci ildə "Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında" Qanun qəbul edilmişdir.

Bundan başqa, cinayət prosesini həyata keçirən orqanların səhvi və ya sui-istifadəsi nəticəsində cinayət məsuliyyətinə cəlb edilmiş və ya məhkum edilmiş şəxslərin pozulmuş hüquqlarının bərpası və vurulmuş ziyanın ödənilməsi ilə bağlı yaranan dövlət öhdəliyinin həyata keçirilməsi üçün reabilitasiya institutuna aid normalar 1 sentyabr 2000-ci ildə qüvvəyə minmiş Azərbaycan Respublikasının Cinayət-prosessual Məcəlləsinə ayrıca fəsil kimi daxil edilmişdir.

Lakin reabilitasiya institutuna aid normaların analizi göstərir ki, Azərbaycan Respublikasının Cinayət-prosessual Məcəlləsində həlli vacib olan bəzi boşluqlar və ziddiyyətlər mövcuddur. Bundan başqa, həmin normaların praktikada tətbiqi də onu söyləməyə əsas verir ki, onlar müəyyən qüsurlara və reabilitasiya olunan şəxsin vurulmuş ziyana görə kompensasiya almaqla bağlı subyektiv hüquqlarını təmin etməkdə az effektə malikdir.

Müəyyən dövrdə məhkəmənin hökmü ilə bəraət alanların və haqqında cinayət təqibinə bəraətverici əsasla xitam verilən şəxslərin sayı az olsa da, vurulmuş ziyanın ödənilməsi üzrə yaranan münasibətlərin mükəmməl tənzimləmə mexanizminə ehtiyac vardır.

Yuxarıda qeyd olunanlar dissertasiya mövzusunun aktuallığını müəyyən edir.

**Problemin elmi tədqiqinin vəziyyəti.** Reabilitasiya uzun illər cinayət-prosessual qanunvericilikdə müstəqil institut kimi təsbit olunmasa da, bu mövzuda müxtəlif vaxtlarda tədqiqat işləri aparılmış və müxtəlif fikirlər irəli sürülmüşdür. Məsələn, V.İ. Antonov, B.T. Bezlepkin, L.V. Boyçova, O.V. Ximiçeva, N.V. İlyutçenko, O.A. Korneyev, M.V.

Maksimenko, S.V. Narijniy, M.İ. Pastuxov, A.A. Podopriqora, M.F. Polyakova, V.M. Savitskiy, M.S. Stroqoviç, N.Y. Şilo, T.T. Taciyev, İ.L. Trunov, E.V. Veretennikov[1] və başqaları bu sahədə elmi araşdırmalar aparmışlar.

---

[1] Антонов В.И. Институт реабилитации и его уголовно-правовое значение: автореф. дис. … канд. юрид. наук. Ижевск, 2001; Безлепкин Б.Т. Возмещение вреда, причиненного гражданину судебно-следственными органами. М.: Академия МВД СССР, 1979; Безлепкин Б.Т. Возмещение ущерба, причиненного гражданину незаконными действиями органов дознания, предварительного следствия, прокуратуры и суда. М.: «Юридическая литература», 1985; Бойцова В.В., Бойцова Л.В. Реабилитация необоснованно осужденных граждан в современных правовых системах: Учебное пособие. Тверь, 1993; Бойцова Л.В. Реабилитация необоснованно осужденных граждан. Автореф.дис. …канд. юрид. наук. Л.,1990; Химичева О.В. Реабилитация в уголовном судопроизводстве // Законность, 2003, № 9, с. 15-21; Ильютченко Н.В. Возмещение ущерба, причиненного личности в уголовном процессе незаконными действиями органов дознания, предварительного следствия, прокуратуры и суда: Автореф. дис. …канд. юрид. наук. М.: Кристалл, 1995; Корнеев О.А. Институт реабилитации в уголовно-процессуальном праве России: автореф. дис. … канд. юрид. наук. Челябинск, 2005; Максименко М.В. Реабилитация в суде первой инстанции: Автореф. дис. … канд. юрид. наук. Владимир, 2006; Нарижний С.В. Компенсация морального вреда в уголовном судопроизводстве России. М.–СПб.: «Издательский дом Герда», 2001; Пастухов М.И. Реабилитация невиновных. Основы правого института. Минск: Изд-во «Университетское», 1993; Подопригора А.А. Реабилитация в уголовном процессе России: Автореф. дис. …канд. юр. наук. Ростов-на Дону, 2004; Полякова М.Ф. Возмещение имущественного ущерба в случаях реабилитации одна из гарантий прав личности в советском уголовном процессе: Учебное пособие. М.: «Юридическая литература», 1986; Савицкий В.М. Предисловие к книге Касумова Ч.С. Последствия реабилитации по советскому праву. Баку: Элм, 1991; Строгович М.С. Курс советского уголовного процесса. Т. 2, М.: Наука, 1970; Шило Н.Я. Проблема реабилитации на предварительном следствии. Ашхабад: Ылым, 1981; Таджиев Т.Т. Реабилитация в советском уголовном процессе. Ташкент: Издательство «ФАН», 1986; Трунов И.Л. Особенности национальной реабилитации // Журнал «Свободная мысль» в-2 (1552) 2005; Веретенников Е.В. Компенсация морального вреда, причиненного деяниями сотрудников правоохранительных органов // Законность, 2006, №11.

Respublikamızda isə Ç.S. Qasımov, A.T. Novruzov[1] və başqaları bu mövzuya toxunmuşlar.

Adıçəkilən tədqiqatçılar tərəfindən reabilitasiya institutunun inkişafının əsas istiqamətləri müəyyən olunsa da, onun bəzi məsələləri hələ də kifayət qədər tədqiq edilməmişdir. Eyni zamanda, Ç.S. Qasımov tədqiqat işini sovet dövlətinin tələblərinə uyğun, bir sözlə insan hüquq və azadlıqlarının məhdud olduğu bir dövrdə yazmışdır.

Respublikamız müstəqillik əldə etdikdən sonra demokratiya, insan hüquq və azadlıqlarına hörmət prinsipləri rəhbər tutularaq yeni Cinayət-prosessual Məcəllənin qəbul edilməsi reabilitasiya institutuna aid olan bir sıra məsələlərə yeni yanaşmanı labüd edir.

A.T. Novruzov bu istiqamətdə tədqiqat aparsa da, onun apardığı tədqiqat reabilitasiya institutunun bir məsələsi olan vurulmuş ziyanın ödənilməsi haqqındadır. Bundan başqa, həmin işdə vurulmuş ziyanın ödənilməsi ilə bağlı mövcud qanunvericilikdə boşluqların və ziddiyyətlərin olması göstərilsə də, onların aradan qaldırılması istiqamətində az təkliflər verilmişdir.

Fikrimizcə, reabilitasiya, o cümlədən vurulmuş ziyanın ödənilməsi haqqında mövcud qanunvericilikdəki boşluqların və ziddiyyətlərin aradan qaldırılması üçün bu barədə kompleks tədqiqatın aparılması zəruridir.

**Tədqiqatın obyekti.** Tədqiqatın obyekti cinayət prosesini həyata keçirən orqanlarla reabilitasiya olunan şəxslər arasında reabilitasiya olunan şəxslərin pozulmuş hüquqlarının bərpası və vurulmuş ziyanın ödənilməsi hüququnun realizəsi və cinayət prosesini həyata keçirən şəxslər tərəfindən reabilitasiya tədbirlərinin həyata keçirilməsi ilə əlaqədar yaranan münasibətlər hesab olunur.

**Tədqiqatın predmeti.** Tədqiqatın predmeti cinayət prosesini

---

[1] Касумов Ч.С. Последствия реабилитации по советскому праву. Баку: Элм, 1991; Novruzov A. T. Hüquq mühafizə orqanlarının vəzifəli şəxslərinin qeyri-qanuni hərəkətləri nəticəsində bəraət qazanmış şəxslərə vurulmuş ziyanın ödənilməsi institutunun bəzi problemləri. Hüq. elm. nam. … dis. avtoref. Bakı, 2007.

həyata keçirən orqanların səhvi və ya sui-istifadəsi nəticəsində cinayət məsuliyyətinə cəlb edilmiş yaxud məhkum edilmiş təqsirsiz şəxslərin pozulmuş hüquqlarının bərpası və vurulmuş ziyanın ödənilməsinə yönəlmiş reabilitasiya tədbirlərinin cinayət prosesini həyata keçirən orqanlar tərəfindən həyata keçirilməsinin və reabilitasiya olunan şəxsin öz hüquqlarından istifadə etməsinin hüquqi mexanizmi hesab olunur.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi cinayət prosesini həyata keçirən orqanın səhvi və ya sui-istifadəsi nəticəsində cinayət məsuliyyətinə cəlb edilmiş və ya məhkum edilmiş şəxslərin reabilitasiyası institutuna aid nəzəri müddəaların, habelə hüquq tətbiqetmə təcrübəsinin öyrənilməsindən, analizindən və bunun əsasında qeyd olunan institutun hüquqi tənziminin və tətbiqi təcrübəsinin təkmilləşdirilməsi yollarının müəyyən edilməsindən ibarətdir.

Tədqiqatın vəzifələrinə aşağıdakı məsələlərin həlli aiddir:

-cinayət prosesində reabilitasiya anlayışının izahının verilməsi;

-vurulmuş ziyanın reabilitasiya qaydasında ödənilməsi üzrə yaranan münasibətlərin hüquq sahəsinə görə aidiyyətinin müəyyən edilməsi;

-cinayət prosesində reabilitasiyanın həyata keçirilməsinin prosessual qaydasının tədqiq edilməsi;

-reabilitasiya olunan şəxsə vurulmuş maddi və fiziki ziyanın ödənilməsi və mənəvi ziyanın nəticələrinin aradan qaldırılması xüsusiyyətlərinin müəyyən edilməsi;

- reabilitasiya olunan şəxsin pozulmuş hüquqlarının bərpasını və vurulmuş ziyanın ödənilməsini tənzimləyən qanunvericiliyin təkmilləşdirilməsi barədə təkliflərin verilməsi.

**Tədqiqatın metodologiyası və metodları.** Tədqiqat işində ümumi dialektika metodundan, habelə xüsusi elmi metodlar olan tarixilik, müqayisəli-hüquqi, sistemli və statistik təhlil və məntiqilik metodlarından istifadə edilmişdir. İşdə Cinayət prosesinə, Cinayət hüququna, Mülki hüquqa və Dövlət və hüquq nəzəriyyəsinə aid tədqiqat işləri öyrənilmişdir.

**Tədqiqatın empirik bazası.** Dissertasiya işində məhkəmələrin

fəaliyyətinə aid statistik məlumatlardan istifadə edilmişdir. Bundan başqa, tədqiqatın empirik bazasını dissertasiyada araşdırılmış bəraət hökmü çıxarılmış cinayət işləri təşkil edir.

**Tədqiqatın normativ bazası.** Araşdırılan məsələlərlə bağlı Azərbaycan Respublikasının Konstitusiyasının, beynəlxalq-hüquqi aktların, Azərbaycan Respublikasının cinayət-prosessual və mülki qanunvericiliyinin, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin və Ali Məhkəməsi Plenumunun qərarlarının müddəalarından istifadə olunmuş və bəzi xarici ölkələrin qanunvericiliyinin analizi də aparılmışdır.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat işində reabilitasiya institutunun Azərbaycan Respublikasının Cinayət-prosessual Məcəlləsində təsbit olunmuş əsas müddəalarının və onun tətbiqi təcrübəsinin analizi əsasında qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində təkliflər verilmişdir.

Bundan başqa, tədqiqat işində cinayət-prosessual reabilitasiya, reabilitasiya olunan, reabilitasiya hüququ anlayışlarının izahı verilmiş, reabilitasiya hüququnun və cinayət prosesini həyata keçirən orqanın səhvi və ya sui-istifadəsi nəticəsində vurulmuş ziyanın ödənilməsi hüququnun mahiyyəti, onların yaranması əsasları, subyekt tərkibi, müasir cinayət prosesi modellərinin tətbiqində reabilitasiya institutunun rolu və reabilitasiyanın həyata keçirilməsinin prosessual qaydası kimi aktual məsələlər araşdırılmışdır.

Dissertasiyada cinayət prosesini həyata keçirən orqanın səhvi və ya sui-istifadəsi nəticəsində pozulmuş hüquqların bərpası və vurulmuş ziyanın ödənilməsi hüququnun həyata keçirilməsi mexanizminin cinayət-prosessual qaydada tənzimlənməsinə yönəlmiş bir sıra nəzəri müddəalar və praktiki tövsiyələr verilmişdir.

**Dissertasiyada tədqiqatın elmi yeniliyini şərtləndirən aşağıdakı müddəalar irəli sürülərək müdafiəyə çıxarılmışdır:**

1. Reabilitasiya cinayət prosesini həyata keçirən orqanın səhvi və

ya sui-istifadəsi nəticəsində cinayət məsuliyyətinə cəlb edilmiş və ya məhkum edilmiş şəxsin pozulmuş hüquqlarının bərpası və vurulmuş ziyanın ödənilməsi hüququnun tanınması, habelə pozulmuş hüquqların bərpası, vurulmuş maddi və fiziki ziyanın ödənilməsi, mənəvi ziyanın nəticələrinin aradan qaldırılması məsələsinin cinayət prosesinin gedişində real həlli qaydası, bu mümkün olmadıqda isə onun iddia icraatı qaydasında həllinə dövlət təminatıdır.

Buna uyğun olaraq, Azərbaycan Respublikasının Cinayət-prosessual Məcəlləsinin 7-ci maddəsinə aşağıdakı məzmunda "reabilitasiya", "reabilitasiya hüququ" və "reabilitasiya olunan" anlayışlarının daxil edilməsini təklif edirik:

"reabilitasiya - cinayət prosesini həyata keçirən orqanın səhvi və ya sui-istifadəsi nəticəsində cinayət məsuliyyətinə cəlb edilmiş və ya məhkum edilmiş təqsirsiz şəxsin reabilitasiya hüququnun tanınması və təmin edilməsi qaydası;

reabilitasiya hüququ - cinayət prosesini həyata keçirən orqanın səhvi və ya sui-istifadəsi nəticəsində təqsirsiz şəxsin pozulmuş hüquqlarının (əmək, mənzil və sair hüquqların) və təmiz adının (reputasiyanın) bərpasını, vurulmuş maddi və fiziki ziyanın ödənilməsini, mənəvi ziyana görə kompensasiya verilməsini tələb etmək barədə dövlət tərəfindən tanınan hüququ;

reabilitasiya olunan - cinayət prosesini həyata keçirən orqanın səhvi və ya sui-istifadəsi nəticəsində cinayət məsuliyyətinə cəlb edilmiş və ya məhkum edilmiş və reabilitasiya hüququ tanınan və təmin olunması üçün tədbirlər görülən təqsirsiz şəxs."

2. Reabilitasiya hüququnun yaranması əsası cinayət prosesi ilə bağlı olduğuna görə reabilitasiya institutu sahə aidiyyətinə görə cinayət-prosessual institut hesab olunur.

3. Bəraət qazanma reabilitasiya mənasını vermədiyinə görə Azərbaycan Respublikasının Cinayət-prosessual Məcəlləsinin V fəslinin adından "Bəraət qazanma" sözünün çıxarılması və "Reabilitasiya"

sözünün mötərizədən kənarda fəslin adı kimi işlənilməsi zəruridir.

4. Cinayət prosesini həyata keçirən şəxslərin reabilitasiya olunma sahəsində məsuliyyətinin artırılması üçün reabilitasiya olunmanın cinayət mühakimə icraatının vəzifələrindən biri kimi qanunvericiliyə daxil edilməsinə ehtiyac vardır.

5. Azərbaycan Respublikasının Cinayət-prosessual Məcəlləsinin 36-cı maddəsində göstərilən prinsipin adının dəyişdirilərək "Reabilitasiya olunan şəxsin pozulmuş hüquqlarının bərpasının təmin olunması" kimi verilməsi vacibdir.

6. Azərbaycan Respublikasının Cinayət-prosessual Məcəlləsinin vurulmuş ziyanın ödənilməsi hüququnu istisna edən hallardan bəhs edən 57.3-cü maddəsində bəzi qüsurların olduğuna və vurulmuş ziyanın ödənilməsi hüququnu istisna edən halların dəqiqləşdirilməsinə ehtiyac olduğuna görə onun dəyişdirilərək aşağıda qeyd olunmuş mətndə verilməsini təklif edirik:

"Barəsində bəraət hökmü və ya bəraətverici əsasla cinayət təqibinə xitam verilməsi haqqında qərar çıxarılmış şəxslərin heç bir təzyiq olmadan könüllü gəlməklə və ya təqsirli olduqları barədə yalan ifadə verməklə özlərinə qarşı cinayət təqibinin başlanmasına və prosessual məcburiyyət tədbirlərinin tətbiqinə şərait yaratmaları müəyyən edildikdə ziyan ödənilmir."

7. Cinayət təqibinə xitam verilməsi əsaslarının hər biri bəraətverici olmadığından Azərbaycan Respublikasının Cinayət-prosessual Məcəlləsinin "Şəxsin bəraət qazanması" adlanan 55-ci maddəsinin 3-cü hissəsində "hər hansı əsaslarla cinayət təqibinə xitam verilmiş" ifadəsi əvəzinə "cinayət təqibinə bəraətverici əsaslarla xitam verilmiş" ifadəsinin işlənilməsi zəruridir.

8. Reabilitasiya olunan şəxsin pozulmuş hüquqları vurulmuş ziyanın ödənilməsindən asılı olmayaraq bərpa edilməli olduğundan Azərbaycan Respublikasının Cinayət-prosessual Məcəlləsinin 59-cu maddəsinin adının dəyişdirilərək "Digər hüquqların bərpası"

adlandırılması məqsədəuyğundur.

9. Reabilitasiya olunan şəxsin əmək hüququ hər bir halda bərpa edilməli olduğundan Azərbaycan Respublikasının Cinayət-prosessual Məcəlləsinin 57.1-ci maddəsinin ikinci cümləsinin aşağıdakı mətndə verilməsi məqsədəuyğundur:

"Həmçinin, bu şəxslərin əmək və mənzil hüquqları bərpa edilməlidir. Əvvəlki vəzifə və əvvəlki mənzillə təmin etmək mümkün olmadıqda isə həmin hüquqların pozulması nəticəsində dəyən ziyanın pul kompensasiyası ödənilməlidir."

10. Azərbaycan Respublikasının Cinayət-prosessual Məcəlləsinin 59.2-ci maddəsinə "təqibinə" sözündən sonra "bəraətverici əsasla" ifadəsinin əlavə edilməsi zəruridir.

11. Bəraət almış şəxsin tam reabilitasiyasının təmin olunması üçün "təqsirliliyin sübuta yetirilməməsi" kimi bəraətverici əsasın qanunvericilikdən çıxarılması vacibdir.

12. Reabilitasiya aktı vurulmuş ziyanın ödənilməsi hüququnun yalnız tanınması forması deyil, eyni zamanda onun həlli forması olduğundan Azərbaycan Respublikasının Cinayət-prosessual Məcəlləsinin 61.1-ci maddəsində "tanınır" sözündən sonra "və mümkün olduqda təmin edilir" ifadəsinin əlavə edilməsi zəruridir.

13. Bəraət almış şəxsə vurulmuş ziyanın ödənilməsi prosedurunun sadələşdirilməsi və məhkəmənin yekun qərarla bəraət almış şəxsə vurulmuş ziyanın ödənilməsi məsələsini həll etməsi üçün Azərbaycan Respublikasının Cinayət-prosessual Məcəlləsinin 348.3-cü maddəsinin aşağıdakı redaksiyada verilməsi zəruridir:

"Məhkəmə bəraət hökmü çıxararkən bəraət almış şəxsə cinayət prosesini həyata keçirən orqanların səhvi və ya sui-istifadəsi nəticəsində vurulmuş ziyanın xarakteri, məbləği və ödənilməsi qaydası barədə qərar qəbul edir."

14. Qanunvericilikdə "mənəvi ziyanın ödənilməsi" ifadəsinin əvəzinə həm mənəvi ziyana görə kompensasiya verilməsini, həm də

reputasiyanın (təmiz adın) bərpa olunmasını əhatə edən "mənəvi ziyanın nəticələrinin aradan qaldırılması" ifadəsinin işlənilməsi vacibdir.

15. Cinayət prosesini həyata keçirən orqanın səhvi və ya sui-istifadəsi nəticəsində vurulmuş mənəvi ziyana görə ödənilməli kompensasiya məbləğinin qanunvericilikdə dəqiq müəyyən edilməsi zəruridir.

**Tədqiqat işinin nəzəri və təcrübi əhəmiyyəti.** İşin nəzəri və təcrübi əhəmiyyəti müəllif tərəfindən nəzərdən keçirilən problemlərin aktuallığı və cinayət prosesində reabilitasiya institutunun əvvəllər tədqiq edilməmiş və ya tam tədqiq edilməmiş nəzəri və elmi-praktiki problemlərinin həlli barədə əsaslandırılmış fikirlərin irəli sürülməsi ilə izah edilir. Tədqiqat işində çıxarılmış nəticələr və irəli sürülmüş tövsiyyələr cinayət-prosessual qanunvericiliyin təkmilləşdirilməsi üçün, dərsliklər, metodoloji vəsaitlər hazırlanarkən, habelə hüquq mühafizə orqanlarının fəaliyyətində istifadə oluna bilər.

**Tədqiqatın nəticələrinin aprobasiyası.** Dissertasiya "Azərbaycan" Universitetinin "Cinayət hüququ və cinayət prosesi" kafedrasında yerinə yetirilmişdir. Işin əsas müddəaları, qanunvericiliyin və məhkəmə praktikasının təkmilləşdirilməsinə dair təkliflər çap edilmiş məqalələrdə geniş şərh edilmişdir. Bundan başqa, müəllif tədqiqatın nəticəsi barədə bir sıra elmi-praktik konfranslarda çıxış etmişdir.

**Dissertasiyanın strukturu.** Dissertasiya işi girişdən, doqquz yarımfəsli birləşdirən iki fəsildən, tədqiqat gedişində çıxarılan müddəalardan və verilən təkliflərdən ibarət olan nəticədən, habelə ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

Girişdə dissertasiya işinin aktuallığı əsaslandırılmış, tədqiqatın obyekti və predmeti, elmi yeniliyi, məqsəd və vəzifələri müəyyən olunmuş, işin nəzəri və təcrübi əhəmiyyəti açıqlanmışdır.

Dissertasiyanın **“Cinayət prosesində reabilitasiya institutunun mahiyyəti və əhəmiyyəti”** adlanan birinci fəsli beş yarımfəsildən ibarətdir. **“Cinayət prosesində reabilitasiyanın anlayışı, mahiyyəti və əhəmiyyəti”** adlanan birinci yarımfəsildə reabilitasiyanın hərfi mənası, digər elm və hüquq sahələrində işlənməsi dairəsi, xarici ölkələrin qanunvericiliyində tətbiqi təcrübəsi araşdırılaraq və bu sahədə aparılmış tədqiqat işləri öyrənilərək bu cinayət-prossesual anlayışın izahı verilmişdir.

Reabilitasiya latın sözü olub (rehabilitatio) re – yenidən, bir daha, habilitas (habilitatis) – qabiliyyət, yararlılıq mənasını verir və 1) vətəndaşın hüquqlarının (məhkəmə və ya inzibati qaydada) bərpası; 2) geniş mənada təmiz adın, əvvəlki reputasiyanın, imkanların, səhhətin bərpa olunmasının ifadəsi üçün işlənilir[1]. Əksər lüğətlərdə reabilitasiyanın pozulmuş hüquqların bərpası mənasını verməsi göstərilir[2].

Hüquq ədəbiyyatında reabilitasiyanın anlayışı və mahiyyəti barədə irəli sürülmüş fikirlər üç qrupa bölünür[3]:

1) reabilitasiya və bəraət alma eyni anlayışlardır və reabilitasiya bəraət hökmünün və ya cinayət təqibinə bəraətverici əsasla xitam verilməsi haqqında qərarın çıxarılması ilə başa çatır;

2) reabilitasiya dedikdə, reabilitasiyaya hüquqi əsas verən qərarlar çıxarıldıqdan sonra həyata keçirilən tədbirlər (pozulmuş hüquqların bərpası və vurulmuş ziyanın ödənilməsi) nəzərdə tutulur;

3) reabilitasiya bəraət alma faktını, pozulmuş hüquqların bərpasını və vurulmuş ziyanın ödənilməsinə dövlət təminatını əhatə edir.

Reabilitasiyanın anlayışı və mahiyyəti barədə yuxarıda qeyd olunan

---

1 Юридическая энциклопедия / Под ред. М.Ю. Тихомирова. М.: Издательство «Энциклопедия», 1997, с. 383.

2 Azərbaycan dilinin izahlı lüğəti. Dörd clddə. III cild. Bakı, “Şərq-Qərb”, 2006, s. 638; Советский энциклопедический словарь. М.: Издательство «Советская энциклопедия», 1989, с. 1119.

3 Максименко М.В. Реабилитация в суде первой инстанции: Автореф. дис. … канд. юрид. наук. Владимир, 2006, с. 9.

üçüncü fikrə üstünlük verərək hesab edirik ki, reabilitasiya cinayət prosesini həyata keçirən orqanlar tərəfindən reabilitasiya hüququnun tanınması və təmin edilməsi üzrə reabilitasiya tədbirlərinin həyata keçirilməsi qaydasıdır.

Fikrimizcə, bəraət hökmünün və cinayət təqibinə bəraətverici əsasla xitam verilməsi haqqında qərarın çıxarılmasını reabilitasiya ilə eyniləşdirmək olmaz. Reabilitasiya həmin qərarlarda bəraət almış şəxsin reabilitasiya hüququnun tanınması, pozulmuş hüquqlarının bərpası və vurulmuş ziyanın ödənilməsinin həlli qaydasıdır.

Azərbaycan Respublikasının Cinayət-prosessual Məcəlləsinin V fəslinin adında "bəraət qazanma" və "reabilitasiya" terminləri eyniləşdirildiyindən fəslin adını qüsurlu hesab edirik. Fikrimizcə, "bəraət qazanma" "bəraət alma" kimi bəraət hökmünün və ya cinayət təqibinə bəraətverici əsasla xitam verilməsi haqqında qərarın çıxarılması ilə yalnız təqsirləndirilən şəxsə verilən münasibəti ifadə edir. Bir sözlə bəraət qazanma şəxsin təqsirsizliyinin tanınmasıdır. Reabilitasiya isə bəraət almış şəxsin pozulmuş hüquqlarının bərpası və vurulmuş ziyanın ödənilməsi deməkdir.

Reabilitasiya institutunun normaları cinayət prosesini həyata keçirən orqanın səhvi və ya sui-istifadəsi nəticəsində cinayət məsuliyyətinə cəlb edilmiş və ya məhkum edilmiş təqsirsiz şəxsin pozulmuş hüquqlarının və təmiz adının bərpasına, ona vurulmuş ziyanın ödənilməsinə, ədalət mühakiməsinə inam hissinin bərqərar olmasına və cinayət-prosessual fəaliyyətin digər neqativ nəticələrinin aradan qaldırılmasına xidmət edir.

**"Vurulmuş ziyanın reabilitasiya qaydasında ödənilməsi üzrə yaranan münasibətlərin hüquq sahəsinə görə aidiyyətinin müəyyən edilməsi"** adlanan ikinci yarımfəsildə hüquq ədəbiyyatında reabilitasiyanın sırf cinayət-prosessual institut yoxsa, reabilitasiya olunan şəxsə vurulmuş ziyanın ödənilməsi üzrə mülki hüquqi və ya kompleks hüquqi institut olması barədə irəli sürülmüş fikirlər araşdırılaraq bu

məsələyə münasibət bildirilir.

Fikrimizcə, təqsirsiz şəxsin reabilitasiya olunması zərurəti cinayət prosesini həyata keçirən orqanın səhvi və ya sui-istifadəsi nəticəsində cinayət məsuliyyətinə cəlb edilməsi və ya məhkum edilməsi ilə əlaqədar olduğundan və həmin şəxsin pozulmuş hüquqlarının bərpası və vurulmuş ziyanın ödənilməsi üçün hüquqi əsas cinayət prosesini həyata keçirən orqan tərəfindən qəbul olunduğundan reabilitasiya cinayət-prosessual institut hesab edilməlidir.

Reabilitasiyanın mülki-hüquqi institut hesab edilməməsi onunla əlaqədardır ki, birincisi, belə hallarda ziyan cinayət prosesini həyata keçirən orqanın səhvi nəticəsində, yəni heç kimin təqsiri olmadan vurula bilər. Bunula belə, vurulmuş ziyan cinayət prosesini həyata keçirən şəxslərin təqsirindən asılı olmayaraq tam həcmdə ödənilir. İkincisi, vurulmuş ziyanın ödənilməsi ilə bağlı yaranan münasibətlərin subyekti qismində ziyan vurulmasına səbəbkar olan şəxs deyil, dövlət çıxış edir. Reabilitasiya olunan şəxsə ziyanın cinayət prosesini həyata keçirən orqanın səhvi və ya sui-istifadəsi nəticəsində vurulmasına baxmayaraq, bu münasibətlərdə dövlətin vurulmuş ziyanı ödəyən subyekt kimi çıxış etməsi onun konstitusion öhdəliyindən irəli gəlir.

**“Müasir cinayət prosesi modellərinin tətbiqində reabilitasiya institutunun rolu”** adlanan üçüncü yarımfəsildə müasir dövrdə cinayət mühakimə icraatının ayrı-ayrı hüquq sistemlərinin təsiri altında formalaşmış çəkişmə və axtarış (inkvizisiya) modelləri əsasında reabilitasiya institutu barədə qanunvericiliyin müqayisəli təhlili aparılır.

Bu yarımfəsildə “həqiqət yoxsa insan hüquqlarının müdafiəsinə yönəlmiş prosessual forma” problemi araşdırılaraq müasir cinayət prosesi modellərinin əsaslandığı doktrinaların tətbiqində reabilitasiya institutunun rolu müəyyən olunur. Hesab edirik ki, cinayət prosesində əsas diqqət həqiqətin müəyyən edilməsindən daha çox sübutetmə prosesinin qanuniliyinə və insan hüquqlarına riayət olunmasına yönəlməlidir.

Təqsirsiz şəxslərə bəraət verilməsi yol verilmiş səhvin və ya sui-

istifadənin ziyanlı nəticələrinin aradan qaldırılması üçün kifayət etmədiyindən və cinayət prosesini həyata keçirən şəxslərin reabilitasiya olunma sahəsində məsuliyyətinin artırılması üçün reabilitasiyanın cinayət mühakimə icraatının vəzifələri sırasına daxil edilməsini və təqsirsiz şəxslərin reabilitasiyasının hüquqi mexanizminin sadələşdirilməsini təklif edirik.

Birinci fəslin dördüncü yarımfəsli **"Cinayət prosesini həyata keçirən orqanın ziyan vurulması ilə nəticələnən səhvə və ya sui-istifadəyə görə məsuliyyətinin növü və xarakteri"** adlanır.

Təhqiqatçının, müstəntiqin, prokurorun və hakimin səhvi və ya sui-istifadəsi nəticəsində cinayət məsuliyyətinə cəlb etməyə, habelə məhkum etməyə görə məsuliyyətinin növü reabilitasiya hüququnun, o cümlədən vurulmuş ziyanın ödənilməsi hüququnun yaranması əsası ilə bağlıdır. Belə ki, səhv və ya sui-istifadə nəticəsində cinayət təqibinə məruz qalmış şəxsə vurulmuş ziyan səbəbindən asılı olmayaraq ödənilməli olduğundan ziyan vurulması və hüquqların pozulması baxımından səhv və ya sui-istifadə arasında heç bir fərq yoxdur. Lakin cinayət-prosessual fəaliyyətin qanuniliyi baxımından yol verilmiş səhvlə vəzifə səlahiyyətlərindən sui-istifadə arasında çox ciddi fərqlər mövcuddur.

Reabilitasiya olunan şəxsə vurulmuş ziyanın ödənilməsi öhdəliyi dövlətin üzərinə düşür. Bununla belə, sui-istifadə yolu ilə təqsirsiz şəxsə vurulmuş ziyan dövlət hesabına ödənildikdən sonra həmin məbləğin məhkəmənin qərarı əsasında cinayət məsuliyyətinə cəlb edilmiş vəzifəli şəxsdən tutulması düzgündür. Fikrimizcə, belə bir əmlak məsuliyyətinin yalnız cinayət prosesini həyata keçirən şəxsin əməlində cinayət tərkibi olduğu halda yaranması məqsədəuyğundur.

Təqsirsiz şəxsin qəsdən cinayət məsuliyyətinə cəlb edilməsi və nəticədə ona müxtəlif xarakterli ziyan vurulması qanunazidd əməl hesab olunmaqla yanaşı ədalətin bərpasını da tələb edir. Belə hallarda cinayətin açılması və təqsirli şəxslərin ifşa olunması vəzifəsini daşıyan şəxslərin vəzifə səlahiyyətlərindən sui-istifadəsi daha çox ictimai təhlükəli əməl

kimi xarakterizə olunmalıdır.

Birinci fəslin sonuncu yarımfəsli **“Vurulmuş ziyanın reabilitasiya qaydasında ödənilməsi hüququnu istisna edən hallar”** haqqındadır. Burada vurulmuş ziyanın ödənilməsi hüququnun məzmunu və onun yaranması əsasları ilə yanaşı bu hüququ istisna edən hallara da toxunulur.

Vurulmuş ziyanın ödənilməsi hüququnu istisna edən hallardan bəhs olunan Azərbaycan Respublikasının Cinayət-prosessual Məcəlləsinin 57.3-cü maddəsinin mətnində bəzi dəyişikliklərin edilməsinə ehtiyac var. Belə ki, həmin maddədə işlənən “və ya sonradan yalan olduğu aşkar edilərək məhkəmə qarşısında özlərinin təqsirli olduqları barədə bəyanatları” ifadəsi anlaşılmazdır. Hesab edirik ki, “və ya təqsirli olduqları barədə yalan ifadə verməklə” ifadəsi nəzərdə tutulan fikri daha düzgün ifadə edir.

Təqsirsiz şəxsin könüllü gəlməsi və cinayəti törətməsi barədə yalan məlumat verməsi və ya məhkəmə qarşısında təqsirli olduğunu yalandan etiraf etməsi istintaqı çaşdırmaq, əsl təqsirkarın azadlıqda qalmasına şərait yaratmaq kimi qiymətləndirilməlidir. Belə şəxsləri cinayət məsuliyyətinə cəlb etmək mümkün olmasa da, onlara vurulmuş ziyanın ödənilməsindən imtina edilə bilər. Çünki, belə şəxslərin həbs olunmasında, məhkum edilməsində və ya onların digər məhrumiyyətlərə məruz qalmalarında cinayət prosesini həyata keçirən orqanların səhvi olsa belə, buna şərait yaradan ilk növbədə onların özləri olmuşdur.

Hesab edirik ki, təqsirsiz şəxsin yalnız heç bir təzyiq olmadan könüllü gəlməsi və təqsirli olması barədə yalan ifadə verməsi vurulmuş ziyanın ödənilməsi hüququndan məhrum edə bilər.

Dissertasiyanın ikinci fəsli **“Cinayət prosesində reabilitasiyanın həyata keçirilməsinin prosessual qaydası”** adlanır və dörd yarımfəsildən ibarətdir. **“Reabilitasiya aktlarının hüquqi xarakteristikası”** adlanan birinci yarımfəsildə reabilitasiya hüququnun tanınması forması kimi çıxış edən bəraət hökmünün və cinayət təqibinə bəraətverici əsasla xitam verilməsi haqqında qərarın hüquqi

xarakteristikası verilir.

Bəraət hökmünü və cinayət təqibinə bəraətverici əsasla xitam verilməsi haqqında qərarı reabilitasiya olunma baxımından müqayisə edərək bildiririk ki, bəraət hökmü reabilitasiyaya aid məsələlərin, xüsusilə də vurulmuş ziyanın ödənilməsinin həlli imkanlarına görə üstünlüyə malikdir.

Məhkəmə təcrübəsinin təhlili göstərir ki, çıxarılan bəraət hökmlərində reabilitasiya hüququnun, o cümlədən vurulmuş ziyanın ödənilməsi hüququnun tanınması və təmin olunması məsələsi öz həllini tapmır. Bununla əlaqədar hesab edirik ki, reabilitasiya aktının vurulmuş ziyanın ödənilməsi hüququnun tanınması forması ilə yanaşı onun həlli və ya təmin olunması forması olması üçün Azərbaycan Respublikasının Cinayət-prosessual Məcəlləsinin 61.1-ci maddəsində dəyişiklik edilməsi zəruridir.

Bəraət hökmünün hansı əsasla çıxarılmasından asılı olmayaraq o, təqsirləndirilən şəxsin reabilitasiyasına hüquqi əsas verir. Lakin "təqsirliliyi sübuta yetirilmədikdə" əsasında bəraət hökmü şəxsin təqsirliliyini təsdiq edən kifayət qədər sübutlar toplanılmadıqda çıxarıldığına görə sübutetmə prosesinin başa çatmaması təəssüratını yaradır və bununla da təqsirləndirilən şəxsin təqsirsizliyini şübhə altına alır. Bəraət hökmü şəxsin tam təqsirsizliyini göstərən əsasla çıxarılmalı olduğundan bu əsasın qanunvericilikdən çıxarılması məqsədəuyğundur.

**"Pozulmuş hüquqların bərpası"** adlanan ikinci yarımfəsildə reabilitasiya olunan şəxsin pozulmuş hüquqlarının bərpası ilə bağlı məsələlər araşdırılır.

Qanunvericilikdə "vurulmuş ziyanın ödənilməsi hüququ" ilə yanaşı "reabilitasiya hüququ" anlayışının işlənilməsini vacib hesab edirik və Azərbaycan Respublikasının Cinayət-prosessual Məcəlləsinin 7-ci maddəsinə "reabilitasiya hüququ" anlayışının daxil edilməsini təklif edirik.

Cinayət təqibinə xitam verilməsi əsaslarının hər biri bəraətverici

olmadığından Azərbaycan Respublikasının Cinayət-prosessual Məcəlləsinin "Şəxsin bəraət qazanması" adlanan 55-ci maddəsinin 3-cü hissəsində "hər hansı əsaslarla cinayət təqibinə xitam verilmiş" ifadəsinin əvəzinə "bəraətverici əsaslarla cinayət təqibinə xitam verilmiş" ifadəsinin işlənilməsi zəruridir.

Reabilitasiya institutu bərpaedici və kompensasiyaedici funksiya yerinə yetirməklə yalnız vurulmuş ziyanın ödənilməsini deyil, eyni zamanda pozulmuş hüquqların bərpasını da tələb edir.

Azərbaycan Respublikasının Cinayət-prosessual Məcəlləsinin 59-cu maddəsi isə "Vurulmuş ziyanın ödənilməsi ilə bağlı digər hüquqların bərpası" adlanır. Fikrimizcə, reabilitasiya ilk növbədə pozulmuş hüquqların bərpası zərurətindən irəli gəlir və reabilitasiya olunan şəxsə ziyan vurulub-vurulmamasından asılı olmayaraq, onun pozulmuş hüquqları bərpa edilməlidir. Bu hüquqların vurulmuş ziyanın ödənilməsi ilə əlaqələndirilməsi düzgün deyil. Bu səbəbdən həmin maddənin adının dəyişdirilərək "Digər hüquqların bərpası" adlandırılması məqsədəuyğun olardı.

Hesab edirik ki, reabilitasiya olunan şəxsin əmək hüququ hər bir halda bərpa edilməlidir. Yalnız əvvəlki vəzifəyə bərpa olunma ilə bağlı problem yarana bilər ki, bu mümkün olmadıqda da ona bərabər vəzifəyə təyin olunmaq və ya əvvəlki vəzifəsini itirməsi ilə əlaqədar vurulmuş ziyana görə pul kompensasiyası ödənilməlidir.

**"Vurulmuş maddi və fiziki ziyanin ödənilməsi"** adlanan üçüncü yarımfəsildə reabilitasiya olunan şəxsə vurulmuş ziyanın reabilitasiya qaydasında ödənilməsinə aid məsələlərə toxunulur.

Cinayət prosesində vurulmuş ziyanın reabilitasiya qaydasında ödənilməsi üçün vurulmuş ziyanın cinayət prosesini həyata keçirən orqanın səhvi və ya sui-istifadəsi ilə səbəbli əlaqədə olması tələb olunur.

Cinayət-prosessual qanunvericilikdə real zərərdən fərqli olaraq itirilmiş gəlir (əldən çıxmış fayda) ödənilən ziyan sırasında göstərilmir. Hesab edirik ki, Azərbaycan Respublikasının Cinayət-prosessual

Məcəlləsinin 58.3-cü maddəsində və "Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsində göstərilən ödənilən maddi ziyan siyahısında "məhrum olduğu əmək haqqı, pensiya, müavinət və başqa gəlirlər" ifadəsi işlənildiyindən itirilən mənfəət "başqa gəlirlər" qrupuna aid edilə bilər.

Reabilitasiya olunan şəxsə vurulmuş ziyanın ödənilməsini tənzimləyən qanunvericiliyin tətbiqi təcrübəsinin təhlili göstərir ki, bəraət hökmündə vurulmuş ziyanın ödənilməsi hüququ ya sadəcə tanınır, ya da bu məsələyə ümumiyyətlə toxunulmur. Bu səbəbdən bəraət hökmünün vurulmuş ziyanın ödənilməsi hüququnun yalnız tanınması formasına deyil, eyni zamanda bu hüququn təmin olunması və ya vurulmuş ziyanın ödənilməsi məsələsinin həlli formasına çevrilməsi üçün həm qanunvericiliyin, həm də onun tətbiqi təcrübəsinin təkmilləşdirilməsinə ehtiyac vardır.

Bəraət almış şəxsə vurulmuş ziyanın ödənilməsi prosedurunun sadələşdirilməsi və məhkəmənin yekun qərarla bəraət almış şəxsə vurulmuş ziyanın ödənilməsi məsələsini həll etməsi üçün Azərbaycan Respublikasının Cinayət-prosessual Məcəlləsinin 348.3-cü maddəsində işlənən "vurulmuş ziyanın ödənilməsi məsələsinə dair qərar qəbul edir" müddəasına daha qəti xarakter verilməsini və onun əvəzinə "vurulmuş ziyanın xarakteri, məbləği və ödənilməsi qaydası barədə qərar qəbul edir" müddəasının işlənilməsini təklif edirik.

**"Mənəvi ziyanın nəticələrinin aradan qaldırılmasının xüsusiyyətləri"** adlanan dördüncü yarımfəsildə reabilitasiya olunan şəxsə hər bir halda ödənilməli olan, eyni zamanda ödənilməsi vacib və daha çətin ziyan növü olan mənəvi ziyanla bağlı məsələlərə toxunulur.

Hesab edirik ki, mənəvi ziyan şəxsin şərəfinin, ləyaqətinin və ya işgüzar nüfuzunun ləkələnməsi, şəxsi həyat sirrinin və ya şəxsi toxunulmazlığının pozulması nəticəsində sarsıntı, iztirab çəkməsindən

ibarətdir.

Fikrimizcə, mənəvi ziyan tam ödənilə bilən dəyər olmadığından və onun pul ekvivalentinin müəyyən edilməsi çətin olduğundan qanunvericilikdə “mənəvi ziyanın ödənilməsi” ifadəsinin işlənilməsi yolverilməzdir. Belə ki, reabilitasiya olunan şəxsin təmiz adının (reputasiyasının) bərpa olunması da tələb edildiyindən mənəvi ziyanın yalnız kompensasiya ödənilməsi vasitəsilə aradan qaldırılması mümkün deyil. Bu səbəbdən qanunvericilikdə “mənəvi ziyanın ödənilməsi” ifadəsi əvəzinə mənəvi ziyana görə kompensasiya ödənilməsini və təmiz adın bərpasını əhatə edən “mənəvi ziyanın nəticələrinin aradan qaldırılması” ifadəsinin işlənilməsi daha məqsədəuyğundur.

Respublikamızın qanunvericiliyində mənəvi ziyana görə ödənilən kompensasiya məbləğinin nə dəqiq məbləği, nə də aşağı və yuxarı həddi müəyyən edilmir və məsələnin məhkəmənin mülahizəsi əsasında ədalətli həllinə üstünlük verilir.

Reabilitasiya olunan şəxsə vurulmuş mənəvi ziyana görə ödənilməli kompensasiya məbləğinin aşağı və yuxarı həddinin və ya dəqiq məbləğin qanunla müəyyən edilməsini daha ədalətli hesab edirik.

Cinayət prosesini həyata keçirən orqanın səhvi və ya sui-istifadəsi nəticəsində cinayət təqibinə məruz qalmış şəxsin keçirdiyi həyəcan və iztirab onun daxili aləmində baş verən proseslə bağlı olduğundan vurulmuş mənəvi ziyanın dərəcəsi fərdin subyektiv təəsüratı əsasında müəyyən oluna bilər, lakin bu ziyanın əvəzinə ödəniləcək kompensasiya məbləğinin qiymətləndirilməsinə şamil oluna bilməz.

Bu səbəbdən kompensasiya məbləği ilə əlaqədar mənəvi iztirabın dərəcəsi müəyyən edilərkən tətbiq edilmiş prosessual məcburiyyət tədbirinin və ya cəzanın növü və hallarının nəzərə alınmasını təklif edirik.

Fikrimizcə, qanunsuz tutma, həbsdə saxlama və s. nəticəsində vurulmuş mənəvi ziyana görə kompensasiyanın məbləği Azərbaycan Respublikasının Cinayət-prosessual Məcəlləsinin 190-cı maddəsində göstərildiyi qayda ilə müəyyən oluna bilər.

Beləliklə, reabilitasiya hüququnun cinayət təqibinə bəraətverici əsasla xitam verilməsi haqqında qərarla və ya bəraət hökmü ilə tanınmasından və həmin qərarların hansı əsasla çıxarılmasından asılı olmayaraq, təqsirsiz şəxsin tam reabilitasiyası, yəni pozulmuş hüquqlarının və təmiz adının bərpası, habelə vurulmuş ziyanın ödənilməsi təmin olunmalıdır.

Dissertasiyanın nəticə hissəsində aparılmış tədqiqat və ümumiləşdirmə yolu ilə əldə olunmuş yekun müddəalar və qanunvericiliyin təkmilləşdirilməsinə yönəlmiş təkliflər irəli sürülür.

Dissertasiya mövzusu ilə bağlı müəllifin aşağıdakı elmi əsərləri nəşr olunmuşdur:

1. Cinayət prosesində reabilitasiya anlayışı // Keçid dövründə Azərbaycan Respublikasında dövlət və hüquq quruculuğunun aktual problemləri. EMM. 13-cü buraxılış. Bakı, 2005, s. 405-410.

2. Cinayət prosesində vurulmuş ziyanın reabilitasiya qaydasında ödənilməsi hüququnu istisna edən hallar // Elmi əsərlər (AMEA). № 3-4(6). Bakı, 2006, s. 243-251.

3. Reabilitasiya hüququnun məzmunu və subyektləri // Dirçəliş – XXI əsr. 116-117 / 2007, s. 60-67.

4. Müasir cinayət prosesi modellərinin tətbiqində reabilitasiya institutunun rolu (nəzəri-hüquqi təhlil) // Azərbaycan Respublikasında dövlət və hüquq quruculuğunun aktual problemləri. EMM. 17-cü buraxılış. Bakı, 2007, s. 361-367.

5. Cinayət prosesində mənəvi ziyanın reabilitasiya qaydasında aradan qaldırılmasının xüsusiyyətləri // Qanun. № 04 (156), Bakı, 2007, s. 88-95.

6. Bəraət hökmü reabilitasiyanın hüquqi əsası kimi // Azərbaycan Respublikasında dövlət və hüquq quruculuğunun aktual problemləri. EMM. 19-cü buraxılış. Bakı, 2007, s. 465-473.

7. Вид и характер ответственности должностных лиц правоохранительных органов, причинивших ущерб гражданам

вследствие ошибок и злоупотреблений. Предупреждение преступности. № 1 (25), Алматы, 2009, с. 56-58.

8. Cinayət prosesində vurulmuş maddi və fiziki ziyanın reabilitasiya qaydasında ödənilməsi xüsusiyyətləri. İpək yolu. № 3-4. Bakı, 2009, s. 37-42.

9. Reabilitasiya olunan şəxsə vurulmuş ziyanın ödənilməsi xüsusiyyətləri. Azərbaycan inkişaf etmiş cəmiyyətə doğru: reallıqlar, perspektivlər // Ümumrespublika elmi-praktik konfransının materialları. Bakı, "Azərbaycan" Universiteti, 2011. s. 169-170.

10. Bəraət almış şəxsin reabilitasiyası üzrə yaranan münasibətlərin hüquq sahəsinə görə aidiyyəti məsələsi // Qloballaşma şəraitində davamlı inkişafın aktual problemləri / Ümummilli lider Heydər Əliyevin anadan olmasının 88-ci ildönümünə və müasir Azərbaycan dövlətçiliyinin 93 illiyinə həsr edilmiş Beynəlxalq Konfransın Materialları. Bakı, "Azərbaycan" Universiteti, 2011, s. 347-349.

11. Cinayət prosesində reabilitasiya institutunun təyinatı. Elmi məcmuələr (Milli Aviasiya Akademiyası). Cild 16, № 3. Bakı, 2014, s. 125-130.

12. Некоторые проблемы восстановления нарушенных прав реабилитируемого. Журнал «Закон и право» № 08/15, Москва, 2015, s. 102-106.

**Мурват Сыраджаддин оглы Бабаев**
**Институт реабилитации в уголовном процессе**
**Р Е З Ю М Е**

Диссертация посвящена институту реабилитации, состоящих из норм регулирующих отношения, возникающие из-за восстановления нарушенных прав и возмещения ущерба лицу, невинно привлеченного к уголовной ответственности и осужденного в результате ошибки или злоупотреблений органа, осуществляющего уголовный процесс.

Диссертация состоит из введения, двух глав, охватывающих девять параграфов, заключения и списка использованной литературы.

Во введении обосновывается актуальность диссертационной работы, определяется предмет, объект, научная новизна, цели и задачи исследования, раскрывается теоретические и практические значения работы.

Первая глава диссертации называется «Сущность и значение института реабилитации в уголовном процессе». В этой главе диссертант определил содержания этого уголовно-процессуального понятия, исследуя буквальный смысл реабилитации, сферу её использования в других областях науки и права, опыт её применения в законодательстве зарубежных стран и изучение научно-исследовательские работ, проведенные в этой области.

Вторая глава диссертации называется «Процессуальный порядок реализации реабилитации». В этой главе дается правовая характеристика приговора и решения о прекращении уголовного дела по реабилитирующим основаниям, выступающие как формы признания права на реабилитацию. Автор, сравнивая оба юридических акта с точки зрения реабилитации, приходит к выводу, что оправдательный приговор имеет преимущество в возможности

решении вопросов связанных с реабилитацией, а в частности в возмещении причиненного ущерба.

В заключении обобщаются выводы, сделанные в диссертации, даются практические рекомендации, формулируются предложения, направленные на усовершенствование законодательства.

**Murvat S. Babayev**

**Institute for rehabilitation in the criminal process**

**S U M M A R Y**

The dissertation is devoted to the rehabilitation institute, consisting of norms regulating the relations arising out of restoration of violated rights and compensation for damage to a person, innocently brought to criminal responsibility and convicted as a result of mistakes or abuse of the authority conducting the criminal process.

Dissertation consists of an introduction, two chapters, covering nine paragraphs, conclusion, and bibliography.

In the introduction is substantiated the relevance of dissertational research is determined by the subject, object, scientific novelty, goals and objectives of research is revealed the theoretical and practical importance of the work.

The first chapter is called “Essence and importance of institute for rehabilitation in the criminal process”. In this chapter author of dissertation has defined the content of the criminal procedure concepts, exploring the literal meaning of rehabilitation, the sphere of its use in other fields of science and law, the experience of its application in the law of foreign countries and studying the research work conducted in this area.

The second chapter of the dissertation is called “The procedural order of implementation of rehabilitation”. In this chapter is given the legal characterization of verdict and the decision to terminate the criminal case by rehabilitating grounds, acting as a form of recognition of the right to rehabilitation. The author, comparing both juridical acts in terms of rehabilitation, came to the conclusion that the acquittal has the advantage of the possibility of resolving issues related to rehabilitation, in particular to compensation for damage.

On conclusion summarizes the extracts that have done on dissertation, have given practical recommendations, formulated the proposals that directed to the perfection of legislation.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ФИЛОСОФИИ И ПРАВА**

*На правах рукописи*

**МУРВАТ СЫРАДЖАДДИН ОГЛЫ БАБАЕВ**

# ИНСТИТУТ РЕАБИЛИТАЦИИ В УГОЛОВНОМ ПРОЦЕССЕ

*Специальность:* 5612.01 - Уголовный процесс, криминалистика и судебная экспертиза; оперативно-розыскная деятельность

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание научной степени доктора философии по праву**

**БАКУ – 2016**